**MORT**

# My Əsma

QANUN NƏŞRİYYATI

Əsmanın hər gün getdiyi parkda təsadüfən tapdığı bir kitabla başlayan maraqlı hekayə təsvir olunur. Həmin kitabın bir neçə səhifəsinin olmaması Əsmanı müəllifin kimliyini araşdırmağa sövq edir. Uzun axtarışdan sonra bir nəfər kitabxanaçıdan müəllifin kim olduğunu öyrənir. Müəllif haqqında məlumatlar Əsmanın marağını daha da artırır. Hekayə itirilmiş sözlərin, yarımçıq qalan talelərin və yazının insan həyatına təsirinin poetik təsviridir.

Sükut dolu payız günü idi. Boz buludlar günəşin zəif işıqlarını örtür, park isə səssiz bir dünya kimi görünürdü. Əsma bu dünyada özünü kimsəsiz kimi hiss edir, hər gün olduğu kimi bu gün də fikirli halda ona evi qədər doğma olan o parka doğru irəliləyirdi. Havada qurumuş yarpaqların, torpağın qarışıq qoxusu vardı. Bu park onun üçün yad deyil – tanış bir iz – keçmişdən gələn bir nəfəs, bir toxunuş.

Əsma ağır addımlarla irəliləyir, yarpaqlar ayaqlarının altında xışıldayır, ürəyində qəribə sıxıntı hiss edirdi. Bu park... O, yenidən buraya niyə gəlmişdi? Özünə sual verir, amma cavabı da bilirdi. Bura o zamanlar sevdiyi birinin ən çox gəldiyi yerlərdəndi. İllər əvvəl Əsmanı sevən bir gəncin addımları, baxışları və sözləri bu yollarda iz qoymuşdu. "Bura səninlə gəlmək istəyir-

dim həmişə" deyən gəncin bu sözləri Əsmanın hələ də ağlındaydı. Əsma bir anlıq dayanaraq, başını qaldırıb ətrafına baxdı. Hər ağac, hər kölgə, hətta bu səssizlik belə ona keçmiş günləri xatırlatdı. O vaxtlar buraya onunla görüşmək üçün gələn gənc, elə bil bu gün də burada olub, amma indi təkcə xatirələr qalmışdı.

Fəvvarəyə doğru addımlayıb, orada dayananda, ayaqları, sanki getmədi. Bu yer onun üçün xatirələrin mərkəzi – bir vaxtlar birlikdə oturduqları, gülüb danışdıqları anları yaddaşının dərinliklərindən üzə çıxaran yerdi. "Fəvvarənin səsi sənə də xoş gəlir?" – deyə soruşulan sual, bu xatirələr indi Əsmanın qəlbinə bir ox kimi sancıldı.

Parkda birlikdə keçirdikləri gözəl günlər Əsmanın gözünün önündən film kimi keçirdi. Həmin skamya... Skamyayla üz-üzə dayanaraq, oturmağa tərəddüd edib, baxışlarını skamyaya zillədi. Birdən orada, yerdə üz qabığı cırılmış, solğun və tozlu bir kitab sataşdı gözünə. Əsma kitaba diqqətlə baxır,

burada unudulmasına təəccübləndi. Yaxınlaşıb kitabı əlinə götürüb, soyuq və nəm olan bu kitabı buraya kimin qoyduğunu düşündü.

Üz qabığında solğun hərflərlə nəsə yazılsa da, oxumaq mümkünsüzdü. Əsmanın beynində bir fikir canlandı: "Bəlkə də, bu, təsadüfi deyil..." Məhz burada – onun sevdiyi insanın gəlib oturduğu bir yerdə olması sadəcə təsadüf ola bilməzdi. Əsma kitabı çantasına qoyub evə yollandı. Amma hər addımda kitabı çiynində yük kimi hiss edib anladı ki, bu ağırlıq yalnız fiziki deyil, mənəvidir.

Evə çatanda kitabı masanın üzərinə qoyub bir neçə dəqiqə ona baxsa da, toxunmadı. Kitab onun üçün həm maraqlı, həm də qorxulu idi – sanki onu çağırır, eyni zamanda, keçmişdən bir sirri üzə çıxaracağını pıçıldayırdı. Bir neçə gün keçsə də, Əsma hər dəfə kitabı açmağa cəsarət etməmişdi, amma nəhayət, bir axşam kitabı götürüb üz qabığına baxdı. Bilmirdi ki, bu,

qəlbində basdırılmış xatirələri yenidən üzə çıxaracaq, onu unudulmuş hisslərin dərinliklərinə çəkəcək. Üz qabığı köhnə, amma gözəldi və heç bir yazı olmasa da, bir neçə ulduz işarəsi var idi. Həmin işarələrin ona haradan tanış gəldiyini aydınlaşdırmağa çalışsa da, xatırlaya bilmirdi. Bir anlıq, elə bil keçmişin sükutunda itmiş səsləri eşitdi.

Nəhayət, özündə cəsarət tapıb kitabı açdığı an ilk səhifə onun qarşısında geniş bir dünyanı göstərdi. Bu, sadəcə bir kitab deyil – qəlbinin dərinliklərindəki gizli küncləri kəşf etməyin başlanğıcı idi. Sözlər, sanki ona müraciət edir, ruhunun ən dərin qatlarına toxunurdu. Yazıçı belə demişdi: "Bəzən həyatda gördüklərimizdən qorxuruq. Amma o qorxu yalnız həyatın gerçəkliyini öyrənmək üçün bir imtahandır".

Sanki bu cümlə Əsmanın həyatını əks etdirir, o çox zaman keçmişdə yaşananlardan qorxur, keçmişdəki sevinclər, itkilər, ağrılar onu dərindən təsirləndirirdi. Amma bu cümlə, bir növ, onun ürəyinə sakitlik gəti-

rib, hər şeyin öz zamanında baş verdiyini və hər acının bir dərs olduğunu anlamağına kömək etdi. Kitabın növbəti səhifəsində yazılanlar isə onu bir addım daha yaxınlaşdırdı keçmişinə. Belə cümlə vardı: "Ən böyük dərslər bəzən ən gözəl sevginin içində gizlidir".

Əsmanın gözləri bulanır, keçmişi düşünüb, sevgi dolu anları xatırlayırdı. O insanı necə sevmişdi, birgə keçirdikləri hər anın dəyərini bilmədən... Həmin insanın kim olduğunu artıq xatırlamır, amma ürəyinin bir yerində o hələ də yaşayırdı. Keçmişin xatirələri bir-birinin ardınca üzə çıxmağa başlayır, kitabdakı hər bir cümlə onun həyat hekayəsini danışırdı, sanki. Yazıçı, elə bil onun ağrılarını, sevgi və kədərini hiss etmişdi.

Bir az oxuyub kitabın ortasına çatdıqda səhifələrin cırıldığını görən Əsmada qeyri-müəyyənlik hissi yarandı. Niyə? Nə yazılmışdı o səhifələrdə? Sanki kitabı yazan şəxs bu boşluqları məqsədli şəkildə burax-

mışdı. Əsma cırılan səhifələrdə unudulmuş bir hekayənin qaldığını, kitabın cırılan səhifələrindən heç bir cavab ala bilməyəcəyini fikirləşib, yazıçının itirilmiş sözlərini tapmaq istədi. Həmin sözlərin keçmişdə yaşadıqlarını anlamaq üçün açar ola biləcəyini düşünərək, bu boşluqları özlüyündə doldurmağa çalışır, amma hər dəfə daha da itirdi.

Nəhayət, kitabın son səhifələrinə çatdı. Artıq bu hissədə hər şey fərqli görünmüş, sonuncu səhifə ona az da olsa, bir ümid vermişdi. Yazıçı belə deyir: "Ayrılıq və itkilər bəzən ürəyi qırır, amma sevgi həmişə qalır. İki insan bir-birini sevirsə, nə qədər ayrı olsalar da, hər zaman qovuşmaq üçün bir yol taparlar". Əsmanın qəlbinin dərin qatlarına toxunan həmin cümlədən sonra o bir müddət gözlərini zillədi. Bu sözlər, sanki onun həyatına yazılmış, keçmişi, o sevginin acısını yenidən hiss etdirmişdi. Əsma özünü boşluqda hiss etsə də, sonra düşündü: həmin insan, bəlkə də, ta-